**Bud sümüyünün hərəkətsizləşdirilməsi:**



● Əlaltı vasitələrdən (taxta, budaq, karton və s.) birini qoltuq altından topuğa qədər, digərini isə ayaqların arasından topuğa qədər yerləşdirin. Əlaltı vasitələrlə ayaq arasında qalan boşluqlara yumşaq parça və ya pambıq yerləşdirin. Əlaltı vasitələri döş qəfəsi, çanaq, diz, topuq altından bədənə sarıyın.

**Əgər əl altında bərk bir vasitə (taxta, karton, budaq və s.) yoxdursa:**

● Hər iki ayağın arasına yumşaq parça qoyun. Sınmış ayağı bir neçə yerdən sağlam ayağa sarıyın.





● Pəncə və topuqları bir-birinə səkkizvari şəkildə sarıyın.

**Baldır sümüyünün hərəkətsizləşdirilməsi:**

● Diz və topuğu əhatə edəcək uzunluqda iki ədəd əlaltı vasitəni sınmış ətrafın hər iki tərəfinə qoyun.





● Əlaltı vasitələri geniş sarğı ilə ətrafa sarıyın.

**Əgər əl altında bərk bir vasitə (taxta, karton, budaq və s.) yoxdursa:**



● Hər iki ayağın arasına yumşaq parça qoyun. Pəncə və topuqları səkkizvari şəkildə sarıyın.

● Sınmış ayağı bir neçə yerdən sağlam ayağa sarıyın.



**Pəncə və topuğun hərəkətsizləşdirilməsi:**



● Pəncəni bir neçə dəfə qatlanmış ədyal və ya yumşaq balınc üzərində yerləşdirin.

● Balıncı bir neçə yerdən pəncəyə sarıyın.





● Pəncənin altına hər hansı bir əşya qoyaraq onu bir qədər yuxarı qaldırın.

***Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!***
***Təhlükə zamanı 112-yə zəng edin!***

**AZƏRBAYCAN RESPUBLİKASI**
**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ**

## Fövqəladə hallar üzrə təlimat

# SINIQLAR

## Yadda saxlayın!

● “Təcili yardım” yoldadırsa, sınmış yerə heç nə sarımayın, hərəkət etdirməyin, sabit və tərpənməz qalmasına çalışın.

● Zərərçəkmiş təxliyyə olunacaqsa, ağrını azaltmaq və zədənin fəsadlaşmasının qarşısını almaq üçün sınmış nahiyəni əlaltı vasitələrlə hərəkətsizləşdirin.

● Sınmış nahiyəni olduğu vəziyyətdə hərəkətsizləşdirin, onu düzəltməyə çalışmayın.

● Əlaltı vasitələrlə sınmış yerdən yuxarı və aşağı ən azı iki, bud sümüyünün sınığı zamanı isə üç oynağı hərəkətsizləşdirin.

● Açıq sınıqlar zamanı ilk növbədə qanaxmanı dayandırın, sonra yaranın üzərini təmiz parça ilə örtüb, sınmış yeri hərəkətsizləşdirin.

● Açıq sınıqlar zamanı sınmış sümükləri yerinə salmaq, yaradan sümük qırıntılarını çıxarmaq olmaz.

● Zərərçəkmişin təxliyyəsi zamanı sınmış nahiyə yardım edən şəxs tərəfindən tutulmalıdır.

### Bazu sümüyünün hərəkətsizləşdirilməsi:




● Zərərçəkmişin yaralı qolunu dirsəkdən bükərək sinəsinə yaxınlaşdırın. Mümkünsə, qolunu dirsəkdən tutaraq dəstəklənməsini söyləyin. Qolunun altına yumşaq parça (dəsmal) qoyun.

● Sınmış qolu zərərçəkənin boynundan asılmış ləçək və ya üçbucaq şəklində parçadan keçirin. Digər parçanın köməyi ilə qolu döş qəfəsinə sarıyın.




### Said sümüklərinin hərəkətsizləşdirilməsi:




● Barmaqlar və dirsəyi əhatə edəcək uzunluqda əlaltı vasitəni saidin iç tərəfinə yerləşdirin. Ovucun içinə yumrulanmış hər hansı bir parça qoyun. Əlaltı vasitəni bir neçə yerdən saidə sarıyın.

● Qolu zərərçəkmişin boynundan asılmış ləçək və ya üçbucaq şəklində parçadan keçirin. Digər parçanın köməyi ilə ətrafı zərərçəkmişin döş qəfəsinə sarıyın.




### Dirsəyin hərəkətsizləşdirilməsi:




● Qoltuq altından barmaq uclarına qədər uzunluqda olan əlaltı vasitəni qolun alt hissəsinə yerləşdirin.

● Dirsəkdən yuxarı və aşağıdan əlaltı vasitəni qola sarıyın.




### Bilək, əldarağı sümüklərinin hərəkətsizləşdirilməsi:



● Bilək, əldarağı sümüklərinin sınığı zamanı qolu zərərçəkmişin boynundan asılmış üçbucaq şəkilli parçanın içərisindən (şaldan) keçirin. Əgər əlaltında heç nə yoxdursa, qolu asqıya almaq üçün sadə üsullardan istifadə edin.

### Barmağın hərəkətsizləşdirilməsi:

● Sınmış barmağı sağlam barmağa sarımaqla hərəkətsizləşdirin.



### Yuxarı ətrafların sınıqları zamanı sadə hərəkətsizləşdirmə üsulları:



● Pencəyin aşağı düymələrini açın. Ətəyini yuxarı qaldırıb yaralı qolun üzərindən keçirin və iri sancaqla pencəyə birləşdirin.

● Zərərçəkmiş uzunqollu köynək geyinmişsə, qolu dirsəkdən bükün və köynəyin manşetini əks tərəfdə köynəyə və ya pencəyə sancaqla birləşdirin.





● Pencəyin və ya gödəkçənin bir düyməsini açın və yaralı qolun əlini həmin yerdən içəri yerləşdirin (bilək, əldarağı sümüklərinin sınığı zamanı).

● Yaralı qolun əlini zərərçəkmişin boynundan asılmış kəmər, qalstuk, şərfdən keçirin (said sümüklərinin sınığına şübhə varsa, bu üsuldan istifadə etməyin).

